# "Yuğ" Teatrı təkcə binadan ibarət deyil"

## İradə Gözəlova: "Vaqif İbrahimoğlunun yetirmələri bu teatrı yaşadır, inkişaf etdirir, Azərbaycan teatrının uğurlar qazanmasına töhfələr verirlər"



**Günümüzün əsas mədəni mövzusu Azərbaycan Dövlət "Yuğ" Teatrının yerləşdiyi binanın sökülməsi xəbəridir. Bu xəbər uzaqdan-yaxından teatr camesinə yaxın olan hər bir vətəndaşı narahat edir. Belə ki, teatrın yaradıcısı, mərhum sənətkar Vaqif İbrahimoğlu yenilik edərək psixosof ruhda teatrın əsasını qoymaqla bərabər, həm də öz daxili dünyasına uyğun şəkildə davamçılar yetişdirdi. Hansı ki, o davamçılar bu gün paytaxt və bölgə teatrlarında ən çox izlənilən və maraq doğuran tamaşalar hazırlayır, ölkə mədəniyyətini xarici festivallarda layiqincə təmsil edirlər. Azərbaycan teatr tarixinə adını qızıl hərflərlə yazdıran Vaqif İbrahimoğlu məktəbini danmaq mümkün deyil. Bu məktəbin yetirməsi olmaq da hər adama qismət olmayıb.**



Bu gün Vaqif İbrahimoğlunun yetirmələri müəllimlərinin dəst-xəttindən bəhrələnib, bir çox uğura imza atıblar. Elə müsahibimiz, Gəncə Dövlət Dram Teatrının baş rejissoru İradə Gözəlova kimi. Onun müxtəlif teatrlarda hazırladığı tamaşalar şöhrətini daha da artırıb. Rejissorun sonuncu dəfə səhnələşdirdiyi Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" tamaşası buna bariz nümunədir. Teatrın yaradıcı heyəti hətta bu tamaşa ilə paytaxta qastrol səfərinə də gəlmişdi.



Bölgə teatrının baş rejissoru İradə Gözəlova "Kaspi"-nin qonağı oldu. Rejissor bizimlə söhbətində həm Gəncə Teatrındakı son yeniliklərdən, həm də "məzunu" olduğu "Yuğ" teatrının sökülməsindən, teatrla bağlı olan xatirələrindən danışdı.

**- İradə xanım, sizin rejissorluq etdiyiniz "Dəli yığıncağı" tamaşası paytaxt sakinləri tərəfindən necə qarşılandı?**

- Bizim qastrol səfərimiz çox maraqlı keçdi. Paytaxt sakinləri tamaşamız haqqında xoş sözlər dedilər. Qastrol səfərimizi təşkil edən Mədəniyyət və Turizm Nazirliyinə Gəncə Dövlət Dram Teatrı adından təşəkkürümüzü bildiririk. Paytaxtda nümayiş etdirdiyimiz "Dəli yığıncağı" tamaşası izləyicilərimiz tərəfindən böyük marağa səbəb oldu. Deməli olar ki, Rus Dram Teatrının zalı dolu idi. Tamaşamızı izləməyə gələn qonaqları görəndə çox sevindim. Belə ki, tamaşamıza sənət adamları, görkəmli teatr xadimləri, teatr aləmində sözünü demiş aktyor və aktrisalar, rejissorlar, teatrşünaslar, tənqidçilər və jurnalistlər də təşrif buyurmuşdular. Onları görəndə, çox həyəcan keçirdim. Tamaşanın sonunda Azərbaycanın xalq artisti Şəfiqə Məmmədovanın teatrımızın sevilən aktrisası, xalq artisti Pərvanə Qurbanovaya gül dəstəsi verməsi gözəl və nümunəvi jest idi. Axı o da nə zamansa Mehdi Məmmədovun quruluş verdiyi "Dəli yığıncağı" tamaşasında Pırpız Sona obrazını yaratmışdı. Tamaşadan sonra çox sayda yazılar saytlarda və mətbu orqanlarda yer aldı. Yazılan resenziyalardan, məqalələrdən aydın oldu ki, tamaşa heç də birmənalı qəbul olunmayıb. Onu da deyim ki, bu yazıların içərisində tənqidi yazılara da rast gəldim. Əslində tənqid qəbul olunandı. Tənqid məni daha çox düşünməyə vadar edir. Düzünə qalsa, ən çox təsirləndiyim yazı teatrşünas, tənqidçi Aydın Talıbzadənin məqaləsi oldu. Hesab edirəm ki, o məqalə özü-özlüyündə bir sənət əsəridir. Həqiqətən də Azərbaycanda teatrı sevən və dərindən bilən sənət adamları var. Nə yaxşı ki, həyatda elə insanlar var.

**- Hazırda Gəncə Dövlət Dram Teatrında hansı proseslər gedir? Ümumiyyətlə, yeni tamaşalar varmı?**

- Əlbəttə, indi teatrda Səxavət Mehdiyevin "Sabir" adlı tamaşasının üzərində çalışırıq. Bundan başqa, bu ilin planına görə, Hüseyn Cavidin sevilən əsərlərindən olan "İblis"-ə quruluş verəcəyəm. Təbii ki, bunlarla kifayətlənməyəcəyik. Belə ki, Elçinin "Mahmud və Məryəm" pyesinə Elşad Əhmədov quruluş verəcək. "20 il sonra" pyesinə isə Vaqif Şərifov səhnə həyatı bəxş edəcək. Gəncə Teatrı bu il A.P.Çexovun "Duşeçka" hekayəsi əsasında yeni bir tamaşanın məşqlərinə start verəcək. Tamaşa mənim quruluşumda hazırlanacaq. Qeyd edim ki, aprel ayında teatrımızın Türkiyəyə qastrol səfəri nəzərdə tutulub. May ayında Ukraynanın Dneproderjins şəhərinə qastrol səfərimiz gözlənilir. Şükürlər olsun ki, işimiz yavaş-yavaş gedir. Fevral ayının sonunda Musiqi Teatrında quruluş verdiyim, Fikrət Əmirovun musiqisi əsasında hazırladığım "Min bir gecə" tamaşasının premyerası olacaq. Məlumat üçün bildirim ki, bu tamaşada çəkməçi Maruf və onun ifritə arvadı haqqında böyüklər üçün nağıl səhnələşdiriləcək.

**- "Yuğ" teatrının binasının sökülməsi xəbərini yəqin ki, eşitmisiniz.**

- Bəli, eşitmişəm və bu xəbəri eşitdikdən sonra çox sarsılmışam. Binanın sökülmə xəbəri çoxdan var idi. O zamanlar hələ müəllimimiz Vaqif İbrahimoğlu sağ idi. Ancaq hər dəfə söhbət teatrın binasının söküləcəyinə gələndə, o, bu mövzunun üzərindən keçirdi. Təbii ki, binanın sökülməsi bizim üçün yeni xəbər deyil. Amma kədərli xəbərdir. Mənim bir arzum var - teatr sökülsə belə, "Yuğ" Teatrının yaradıcı kollektivinə uyğun, Vaqif müəllimimin adına layiq bir məkan tapılsın və teatr öz fəaliyyətini orada davam etdirsin. Mədəniyyət və Turizm Nazirliyinin bu yöndə əlindən gələni edəcəyinə əminəm.

**- Siz də Vaqif İbrahimoğlunun təməlini qoyduğu bu teatrın bir yetirməsisiniz. Yəqin ki, sizin də o teatrla bağlı öz xatirələriniz var.**

- Bəli, mən Vaqif müəllimin yetirmələrindən biriyəm. "Yuğ" Teatrı ilə bağlı xatirələrim tükənməzdir. Vaqif İbrahimoğlu mənim həm atam, həm yaxın dostum, həm də müəllimim olub. Təkcə mənimlə deyil, həmin teatrın bütün yaradıcı heyəti ilə bu münasibətdə olub. Hətta mən deyərdim ki, "Yuğ" Teatrı mənim üçün ata evidir. Bəli, mən yuvanı tərk etmişəm. Artıq orda işləmirəm, ancaq buna baxmayaraq, heç vaxt ata evimi unutmamışam. Vaqif İbrahimoğlu sözün əsl mənasında bizim dayağımız olub. Yadımdadır ki, mən Moskva şəhərinə getməli idim. Orada magistraturaya daxil olmuşdum. Ancaq təhsilimi xaricdə davam etdirmək üçün yolpulum çox az idi. Mənim oxumağım üçün teatrın bütün kollektivi Vaqif müəllim başda olmaqla, yolpuluma kömək etdilər. Bu hələ kiçik məsələlərdir. Vaqif İbrahimoğlu hamıya əl tuturdu, kömək edirdi. Onun insanlara qarşı böyük sevgisi vardı. Hər zaman demişəm ki, Vaqif müəllim özünü teatr sənətinin inkişafına fəda etdi. O, özünü tam şəkildə bizə həsr edib. İndi onun yetirmələri Azərbaycan teatrının inkişafı naminə çalışırlar.

**- Vaqif İbrahimoğlu "Yuğ"u yaratdı və onu tələbələrinə əmanət etdi.**

- Bəli, "Yuğ" Teatrının kollektivi Vaqif müəllimin tələbələrindən ibarətdir. Onlar bu teatrı yaşadır, inkişaf etdirir və ömürlərinin sonuna qədər bu fədakar işlə məşğul olmaq arzusundadırlar.

**- Sizcə, teatr başqa bir binaya köçürülsə, yeni binada əvvəlki ab-hava olacaqmı?**

- Əgər "Yuğ" Teatrının binasını sökməli olsalar, təbii ki, yaradıcı heyət üçün əvvəlcə çox çətin olacaq. Ancaq bir şeyi unutmaq lazım deyil ki, "Yuğ" Teatrı təkcə binadan ibarət deyil. Bu teatr görkəmli sənətkarımızın yolunu davam etdirən insanlardan ibarətdir. O fədakar insanlara görə "Yuğ" Teatrı hələ də yaşayır. Onlar olmasaydı, Vaqif müəllimdən sonra "Yuğ" Teatrı məhv olardı. Məncə, maraqlı, teatra uyğun olan yerlərə yaxın bir məkan olsaydı, teatrın kollektivi orada məskən salardı və o məkanı "Yuğ"un enerjisi, ab-havası ilə doldura bilərdilər. Mən buna əminəm.

Qeyd edək ki, aparılan yenidənqurma işlərinin planına uyğun olaraq, M.Muxtarov küçəsi, 83 ünvanında yerləşən Azərbaycan Dövlət "Yuğ" Teatrının binasının da sökülməsi nəzərdə tutulub. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən teatrın kollektivinin müvəqqəti olaraq yerləşdirilməsi və fəaliyyəti üçün zəruri işlər həyata keçirilir.

**Xəyalə Rəis**

## Gənc Tamaşaçılar Teatrının fəaliyyəti beynəlxalq jurnalda

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının fəaliyyəti teatrın üzv olduğu Beynəlxalq qurumun jurnalında öz əksini tapıb. Beynəlxalq ASSİTEJ-in hər ay dərc olunan jurnalında ASSİTEJ-Azərbaycan Milli Mərkəzinin (Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı) dekabr ayı üçün olan yenilikləri yer alıb.**

"Kaspi"-yə verilən məlumata görə, hər ay mütəmadi olaraq həm elektron, həm də kağız formatında dərc olunan jurnalda bu dəfə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında İsveç Krallığının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Tomas Danestadla baş tutmuş görüş haqqında məlumat verilib. Jurnalda göstərilib ki, İsveçin Azərbaycandakı səfirliyi görkəmli İsveç dramaturqu Astrid Lindqrenin bir neçə ən məşhur əsərini Azərbaycan dilinə tərcümə edəcək. Tərcümə olunacaq əsərlər içərisində "Balaca və damda yaşayan Karlson", "Uzuncorab Peppi" və digərləri var. Tərcümə olunan əsərlər kitab halına salınaraq qaçqın şəhərciyində yaşayan uşaqlara paylanacaq. Həmçinin jurnalda yazarın əsərlərindən hər hansı birinin birgə əməkdaşlıq layihəsi çərçivəsində Dövlət Gənc Tamaşaçılar Teatrında səhnələşdiriləcəyi də göstərilib.

Jurnalda toxunulan digər məsələ ASSİTEJ-Azərbaycan Milli Mərkəzinin baş katibinin dəyişdirilməsi və İdarə Heyətində edilən dəyişikliklərlə bağlıdır. Məlumat üçün bildirək ki, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı 2011-ci ildən Beynəlxalq Uşaq və Gənclər Teatrı Assosiasiyasına (ASSİTEJ) üzvdür. Dünyanın 100-dən artıq inkişaf etmiş ölkəsi bu nüfuzlu teatr qurumuna üzvdür. Və qurumun hər ay dərc olunan jurnalında 100-dən artıq Milli Mərkəzin teatr mühitində baş verən yeniliklər, beynəlxalq mədəni hadisələr yer alır.